

**Hüseynov Rəcəb Nazim oğlu**

Rəcəb Nazim oğlu Hüseynov 1994-cü il yanvarin 3-də Tovuz rayonunun Aşağı Quşçu kəndində anadan olub. 2000–2011-ci illərdə Aşağı Quşçu kənd məktəbində təhsil alıb.

Rəcəb Hüseynov 2012–2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Rəcəb Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq iştirak edib. Rəcəb Hüseynov Şuşa döyüşləri zamanı şəhid olub. 13.11.2020-ci il tarixdə Tovuz rayonunun Aşağı Quşçu kəndində dəfn olunub.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamları ilə əsgər Hüseynov Rəcəb Nazim oğlu "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.